

# SƏBAHƏDDİN ÇİNGİZOĞLU

**Səbahəddin Çingiz oğlu Məmmədov** 2000-ci ildə Cəlilabad rayonunun Uzuntəpə kəndində anadan olmuşdur.

2017-ci ildə Cəlilabad rayon Rauf Hüseynov adına Uzuntəpə kənd 2 saylı tam orta məktəbi bitirmişdir. Hazırda Azərbaycan Dövlet Neft və Sənaye Universitetinin III kurs tələbəsidir.

"Vətənpərvərlər", "Anamursedir" (Türkiyə) və s. ictimai-ədəbi qəzetlər; «Bir dünya», «Oil and industry» jurnalları; "Günəşin nuru" şeir toplusu və s. mətbu orqanlar müəllifin yaradıcılığına müraciət etmişdir.

2019-cu ildə «Bumeranq» adlı romanı kitab şəklində oxucuların ixtiyarına verilmişdir.

## YAĞIŞ

Yetim qalmış ümidlərin
Həkdən düşmüş baxışları...
Dikəlib yola gözləyir,
Əsrarəngiz naxışları...

Tək qalmış uşaq kimiyəm,
Sənsiz sıradan biriyəm...
Ölüm hökmlü diriyəm,
Dinləyirəm çıxışları...

Küsdün ərşə getdin necə?
Sağır qaldı bu yurd, küçə...
Sən ağlayırsan hər gecə,
Yağır göydən yağışların...

Dərdən qəlbim dönüb dağa,
Çox istərdim olum çağa...
Kinini qoy bir qırağa,
Yıxıb məni qarğışların!





## ƏSGƏR

Canını əridir vətən yolunda,
Böyüyür həsrəti yurda əsgərin...
Söz yox qaydasındadır hər şey, amma
Bir günü bir ildir burda əsgərin!

Burda keçən ömrü rəməl üstədi,
Gəl ki, vətən qeyrətimiz üstədi...
Qəlbi bir gün doğmaların istədi,
Ürəyi döyündü şurda əsgərin!

Mənim Xocalıda yanıbdır canım,
Sənə səslənirəm, baş komandanım:
– Erməni görəndə qaynayır qanım,
Çevrilir o zaman qurda əsgərin!

Mülkidə yaşaram kefdə-damaqda,
Kiteldə cib də var, kalan yamaq da...
Bəlkə, öləndə deyəcəklər: – Bax da,
Ömrü keçdi vurhavurda əsgərin!

# NƏNƏM ZƏHRA

Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!

Bir nəzər sal, durma kənar,
Müsəlmanın qəlbi qubar,
Bu gün bütün cahan ağlar:
– Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!

Hüseynin başı bax yoxdu,
Əsğərin boğazı oxdu,
Əkbərin də ackən toxdu...
Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!

Bir zərrə içmədi ki, su –
Uşaqlardan ayıbdır bu,
Abbas bu cür şəhid oldu...
Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!

Çat salıbdı dodaqları,
Susuzluqdu qonaqları,
Hanı kövsər bulaqları?
Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!





Təşnə oxlandı Əsğəri,
Boş qaldı xütbə minbəri,
Hüseynin ağlar dilbəri:
– Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!

Səbahəddin, ağla buna,
Seyyid balasıdır ana,
Özün nəzər et bu yana...
Ay baş tacım, nənəm Zəhra,
Nənəm Zəhra, nənəm Zəhra!

# SEVİNCİN KANDARI

Sevincin kandarında
Qüssə ilə bələnmiş
Ruhumdan utanıram...
Sən məgər utanmırsan?!
O qədər yaxın ikən
Bu qədər uzaq olduq.
İndi üz-üzə gəldik,
Deyirsən: – Tanımırsan?!
Yaddaşa həkk olunub
O sənli xatirələr,
Oynayan notlar kimi
Şən mahnılar, bəstələr...
Gəl, həsrətə son qoyaq,

Qurtar məni amandı.
Ürəyim ta dözməyir,
Əvvəl-axır zamandı...
Həsrət çarpaz dağ çəkib,
Köksüm yanıb yamandı!
De: – Saçına nə olub,
Qarışıqdır qarışıq –
Tumarlardan məhrumdur...
Sən onu daramırsan?!
İndi bir sərin xəzri əsir ki,
Səni bu küləkdə görmək istərəm.
Qollarımı sarıb sənin boynuna
Ürək sözlərimi demək istərəm...

Gəl, bir az bizlərdən biz döyək çənə,
O qədər sözlər var deməli sənə,
Gəlmişəm qapınızın ağzına yenə...
İndi de görüm deyə bilərsənmi mənə:
– Mən aramıram, sən niyə aramırsan?!

## ŞƏKİLLƏ SÖHBƏT

Köhnə şəkillərində
Yeni baxışlarım var...
Gəl, yenə gözlərimiz
görüşsün bir daha da,
Bizə gəlsə baha da...
Bu nə işvə, bu nə naz,
Bir qaşa gəl, gözə gəl...





Gözə gəlmə!
Dur canım, dur bizə gəl...

Ağ vərəqlərə hopmuş
qara mürəkkəb kimi
Səni sevərəm, bir də ki,
Səndən gələn hər şeyi...

Ehh, dərdimi deyim kimə?
Axı sənsizlik bir az soluq durur əynimə...
Vallah, elə darıxmışam,
Mən çıxmışam əndazədən.
Günlərim monotonlaşıb –
Bu gün səni düşünürəm,
Səhər yenə də təzədən...

İndi bildin necəyəm?
Halımı soruşmuşdun...
Sanki həşr günüdür,
Gündüz vaxtı gecəyəm...
Çıx get, özümə gəlim,
Salamat qal, gözəlim!